Tarix və onun problemləri, №1-2 2009

**NASİR QULUZADƏ**
*Bakı Dövlət Universitetinin aspirantı*

# DİNİ AYİN – QURBANVERMƏ ADƏTİNİN MƏNŞƏYİNƏ DAİR

Məlum olduğu kimi dini ayin dini sistemin əsas elementlərindən hesab olunur. Ayin dinin mərasim hissəsini təşkil etməklə fövqəltəbii hesab edilmiş hər hansı bir əşyaya, mövcudata və ya hadisəyə sitayişi, o cümlədən ilahi qüvvələrə pərəstişi əks etdirir. Hesab olunur ki, ovsunlu fəaliyyət kimi ayin kor-təbii olaraq yaranmış ovçuluqla, məhsuldarlıqla və məişətlə bağlı mərasimlərin üst-üstə yığılmış məcmusudur. Ən erkən mərasimlər insanların onları əhatə edən xarici mühitin təsirinə hissi və impulsiv reaksiyası nəticəsində meydana gəlmişdir. Bu mərasimlər konkret emosional fəaliyyətin ifadə formasını əks etdirmişdir. İlkin olaraq həmin mərasimlər dini deyil, dünyəvi xarakter daşımış və insanlara ətraf mühitdə daha doğru istiqamət götürmək üçün müəyyən psixoloji halətə gəlməyə xidmət etmişdir. Bu ibtidai icma cəmiyyətində ictimai psixologiyanın bir forması olmuşdur [20].

Dini təsəvvürlərlə şərtlənlənmiş dini ayinlər fetişistik, totemistik, animistik və politeistik kimi qruplar şəklində meydana gəlmiş, sonrakı dövrlərdə isə dünya dinlərinin ayinlər sistemini təşkil etmişdir. Dini ayinin təkamülü qeyri-dini mərasimlərlə qarşılıqlı əlaqələrdən keçir [20].

Ümumiyyətlə, ayinlər və mərasimlər iki əsas – ovsun və rəhmgətirmə xarakterli formalara ayrılırlar. Birinci forma əsasən hər hansı bir əşyanın və predmetin fövqəltəbiiliyinin inamına, ikinci forma isə insan fantaziyasının məhsulu olan hər hansı bir ilahi qüvvənin fövqəltəbiiliyinə əsaslanır.

İngilis tədqiqatçısı E.Teylorun [16, 474] fikrincə, dini mərasimlər nəzəri cəhətdən iki qrupa bölünsə də, gerçəklikdə isə bu mərasimlər bir-biriləri ilə çox qarışır. Bu mərasimlər bir tərəfdən rəmzi əhəmiyyət daşıyaraq dini düşüncənin dramatik ifadəsini və ya dinin pantomim dilini təşkil edir, digər tərəfdən isə ruhi varlıqlarla təmas və ya onlara təsir vasitəsi rolunda çıxış edir. O, dini mərasimlər sırasına dua etməni, qurbanverməni, pəhrizi (orucu), paklanmanı və şərqə istiqamətlənməni də daxil edir [16, 475].

Dini ayin-mərasimlərin yuxarıda sadalanan ən geniş yayılmış elementlərindən biri qurbanvermədir. Bu ayin-mərasimin icrası müasir dövrümüzə kimi qorunub saxlanmaqdadır. Belə ki, Azərbaycan islam ölkəsi olduğu üçün bu adət xalqımız tərəfindən daha təmtəraqlı və kütləvi şəkildə Qurban bayramında icra olunur. Bütün müsəlmanlar üçün əziz olan bu bayramda yalnız ev heyvanları – qoyun, keçi, camış, öküz, dəvə və ya bu cünsdən olan ev heyvanları qurban kəsilir. Digər heyvanların, o cümlədən quşların qurban kəsiməsi islam qaydalarına görə məqbul sayılmır və qadağandır. Zənnimizcə, qurbanvermə adəti ilə əlaqədar mövcud olan bu və ya digər qaydalar və təsəvvürlər təsadüfən meydana gəlməmiş və ümumiyyətlə, bu dini ayinin formalaşmasının özünəməxsus tarixi kökləri, qanunauyğunluqları vardır. Belə ki, islam və digər monoteis dinlərdə icra olunan bu kimi ayinlər və mərasimlər daha çox qədim dövrlərdən yaranmış və zaman-zaman öz məzmun və formasını dəyişmiş ibitidai dini təsəvvürlərdən, inanclardan, etiqadlardan və ayinlərdən qaynaqlanmışdır.

Söylədiklərimizin doğruluğunu Azərbaycanın qədim dövrlərinə məxsus arxeoloji abidələrindən dini ayinləri əks etdirən müxtəlif növ maddi-mədəniyyət nümunələrinin tapılması da sübut edir. Məsələn, Qobustanın Yazılı təpədəki 25 saylı daşın üzərində keçi və əllərini yuxarıya qaldıraraq sanki dua edən bir qrup insan rəsmlərindən ibarət qurbankəsmə səhnəsi təsvir olunmuşdur [10, 40; 5, 61].

Arxeoloji tapıntılar əsasında öyrənilmişdir ki, qədim dövrlərin ibtidai dini təsəvvürləri və etiqadları, o cümlədən dini ayin-mərasimləri hər şeydən əvvəl, bu və ya digər dövrün ictimai münasibətləri və təsərrüfat sahələrilə sıx bağlı olmuşdur [2, 33]. Hələ keçən əsrin ortalarında fransız tədqiqatçısı Şarl Enşlen qeyd edirdi ki, qurbanvermə adəti öz mənşəyini totemistik təsəvvürlərdən götürür. Belə ki, qurban verilən heyvanlar vaxtilə totem olmuş və hətta müqəddəsləşdirilmişlər [19, 92]. Həqiqətən də, ildə bir dəfə xüsusi mərasimlər zamanı totem ətini yeməyə icazə verilirdi və bu da əksər hallarda profilaktik səciyyə daşıyırdı. Çünki, totem əti sehrli və təmizləyici qüvvəyə malik hesab olunurdu. Etnoqrafik müşahidələrlə müəyyən olunmuşdur ki, totem xüsusi mərasimin müşaiyyəti ilə kəsilir və tayfa üzvlərinin iştirakı ilə yeyilirdi [6, 236]. Göründüyü kimi ən erkən inanc formalarından sayılan totemizmin qədim insanların ictimai-mənəvi həyatlarında özünəməxsus yer tutması sonradan müqəddəsləşmiş heyvanın kəsilməsi kimi ənənənin vüsət almasına da şərait yaratmışdır.

Etnoqrafik müşahidələr zamanı məlum olmuşdur ki, Mərkəzi Afrikada yaşayan və əsasən maldarlıqla məşğul olan madi (və ya moro) adlı tayfada baş vermiş əlamətdar hadisələr zamanı xüsusi mərasimlərdə quzu qurban kimi kəsilirdi. İcra olunan müəyyən ayinlərdən sonra mərasimdə iştirak edənlərin hər birninin bədənlərinə quzunun qanı yaxılırdı. Bu onunla izah olunur ki, burada quzu həmin tayfa üçün müqəddəs heyvan hesab olunduğundan onun qanı da ilahi qüvvəyə malikdir. Tayfa üzvlərinin inamına görə quzu qanının bədənə çəkilməsi orqanizmi «saflaşdırır» və ona ilahi güc və həyat verir [18, 594]. Belə bir adəti biz müasir dövrdə xalqımızın müqəddəs ziyarətgahlarda və pirlərdə qurbankəsmə mərasimi zamanı da müşahidə edirik. Belə ki, kəsilmiş qurbanın qanı sifətin müəyyən yerlərinə, xüsusilə də alın nahiyəsinə azacıq sürtülür.

Qurbanlıq heyvanın qanı məqəddəs hesab edildiyindən bəzi predmetlərin üzərinə çilənməsi kimi adətlər də mövcud olmuşdur. Məsələn, qədim mənbənin verdiyi məlumata görə hunlar sitayiş etdikləri Tanrı-xan allahlarının (palıd ağacının) şərəfinə qurban kəsdikləri atın qanını ağacın yarpaqlarına çiləyir, kəlləsini və dərisini isə budaqlarından asırdılar [3, 156-161]

Qurban kəsilmiş heyvanın sümüklərinin ehtiram olaraq basdırılması adəti də xüsusi maraq doğurur. Altaylılar qurbanlıq heyvanın sümüklərini qoruyub saxlayırdılar. Onların inanclarına görə gələcəkdə həmin heyvanın «kutu» (həyat qüvvəsi, həyati gücü) qayıdıb gələcək və həmin heyvan yenidən həyata qayıdacaq. Buna görə telengitlər də yeməkdən sonra süfrədə qalmış sümükləri tullamayıb, onları bir yerə yığıb torpaqda basdırırdılar [7, 101]. Bu inamın izlərini «Göyçək Fatma» nağılında da müşahidə edirik. Nağılda qarı nənə inək kəsiləndə onun sümüklərini torbaya yığıb basdırmağı Fatmaya məsləhət görür [1, 26]. Bəzi tədqiqatçılar bu kimi adətləri totemistik təsəvvürlərlə əlaqələndirirlər.

Əlbəttə, qurbanvermə adətinin meydana gəlməsinə təkcə totemistik görüşlər deyil, həm də deyildiyi kimi təsərrüfat sahəsi də öz mütərəqqi təsirini göstərmişdir. Belə ki, mənimsəmə təsərrüfatı dövründə əsas məşğuliyyətləri ovçuluq olan tayfalarda ovsuni ayinlərlə yanaşı, qurbanvermə adəti də mövcud olmuşdur. Çünki qədim ovçular ovun uğurlu keçməsini həm də ovlanacaq heyvanın və onun «sahibi»nin şərəfinə kəsilmiş qurbanla da əlaqələndirirdilər [19, 89]. Lakin biz hesab edirik ki, mənimsəmə təsərrüfat formasının üstün mövqeyə malik olduğu dövrlərdə qurbanvermə adətinin icrası kütləvi xarakter almamışdır. Ona görə ki, Qədim daş dövründə ibtidai insanların fauna resurslarına hələ tam nəzarət etmək imkanları çox məhdud idi. Bildiyimiz kimi vəhşi heyvanların təbiətdəki fəallıqları və miqrasiyaları əsasən iqlimə, təbii-coğrafi şəraitə, fizioloji və digər amillərə görə tənzimlənir. Təbiətdən daim asılı olan qədim ovçular da bu adətin icrasına münasib olan bu və ya digər heyvanı əldə etmək üçün məhz bu amillərə gö-

rə hərəkət etməli olurdular. Buna görə də belə bir nəticəyə gəlmək olar ki, bu adətin icrası təsadüfi və ya mövsümü xarakter daşımışdır.

Artıq istehsal təsərrüfatının meydana gəlməsilə əlaqədar qurbanvermə adətinin məzmununda da müəyyən dəyişikliklər baş vermişdir. Eneolit və erkən tunc dövrlərində isə istehsal təsərrüfatının inkişafı nəticəsində isə qədim insanların ibtidai dini təsəvvürlərində, inanclarında və o cümlədən ayin-mərasimlərində müəyyən dəyişikliklər olmuş, ev heyvanlarına etiqad güclənmişdi. İstisna deyil ki, məhz maldarlıq təsərrüfatının inkişafından sonra daha çox dini məzmun almış qurbanvermə adəti tədricən müntəzəm və kütləvi şəkildə də icra olunmağa başlanmışdır. Belə ki, məhz maldarlıq kimi təsərrüfat sahəsinin meydana gəlməsi qədim insanlara əhliləşdirmə yolu ilə məlum heyvanlar üzərində nəzarəti həyata keçirməyə imkan yaratmışdır. Qədim insanlar tədricən təsərrüfatlarındakı heyvanların təkcə kəmiyyət, nəsil artımına deyil, hətta seleksiya üsulu ilə növ çeşidliyinə də nail ola bilmişlər. Dediklərimizi 1982-ci ildə Azərbaycanın eneolit dövrü abidələrindən olan Çalağantəpədə aparılan qazıntılar zamanı əldə edilmiş 160 ədəd ev heyvanlarına məxsus sümük qalıqları da sübut edir. Tapılmış bu osteoloji material e.ə. V minilliyin I yarısına aid olunmaqla tərkibi 70 ədədi xırdabuynuzlu heyvana, 65 ədədi donuza və 24 ədədi isə iki öküz cinsinə məxsus olan sümük qalıqlarından ibarətdir [14, 16]. Bundan başqa Əliköməktəpə qədim yaşayış yerinin e.ə. V minilliyə aid eneolit dövrü təbəqəsindən əhliləşdirilmiş atlara məxsus osteoloji qalıqlar aşkar edilmişdir ki, bu at sümüklərinin tədqiqi zamanı da iki at cinsinin mövcudluğu müəyyən olunmuşdur [13, 58; 15, 153].

Bu dövrlərdə ev heyvanlarının qeyd olunan artımı onların daha çox qurbanvermə adətinin vasitəsinə çevrilməsinə şərait yaradırdı. Belə ki, qədim insanlar artıq dini ayin və mərasimlərində qurbanvermə adəti üçün vəhşi heyvanlara deyil, məhz əldə olunması daha asan olan və qida ehtiyatına o qədər də təhlükə yaratmayan ev heyvanlarına üstünlük verirdilər. Təsadüfi deyil ki, qədim yaşayış məntəqlərində aparılan arxeoloji qazıntılar zamanı dini ayinlərin keçirildiyi qurbangahlardan, məbədlərdən xeyli sayda ev heyvanlarına məxsus sümük qalıqları, fiqurlar və təsvirlər aşkar olunmuşdur. Qurbanvermə mərasimləri ciddi qaydalar əsasında keçirilməklə qurbanlıq heyvanın da bədən üzvlərinə xüsusi diqqət verilirdi. Heyvanın başı və buynuzları qurbanvermənin bir əlaməti kimi saxlanılırdı.

Arxeoloji materiallarla müəyyənləşdirilmişdir ki, e.ə. III minillikdə dini ayinlər-mərasimlər zamanı əsasən iribuynuzlu ev heyvanları qurban verilmişdi. Belə mərasimin izinə Qaraköpəktəpə abidəsində təsadüf olunmuşdur. Diqqəti cəlb edən cəhətlərdən biri ondan ibarətdir ki, erkən tunc dövründə Azərbaycan və Cənubi Qafqazın ayrı-ayrı yerlərində olduğu kimi ev heyvanları, xüsusən inək və öküz müqəddəs hesab edilərək əsas pərəstiş obyekti olmuşdu. Məişət və təsərrüfatda, ümumiyyətlə, iqtisadiyyatda mühüm yer tutan belə heyvanlarda erkən tunc dövrünün əhalisi çox güman ki, fövqəl-təbii qüvvələrin mənbəyini görmüş və mərasimlərində məhz bu heyvanları qurban gətirmişdilər [2, 34].

Belə güman etmək olar ki, qədim insanlar ilk dövrlərdə dini ayin və mərasimlərini əsasən təsərrüfatlarındakı ev heyvanlarının kəmiyyət artımını və onlardan əldə olunan məhsul bolluğunu təmin etmək məqsədilə keçirirdilər. Çünki qədim maldarlar öz təsərrüfatlarını inkişaf etdirmək, bol məhsul əldə etmək və ətə olan tələbatlarını ödəmək üçün kifayət qədər təcrübəyə və əmək vərdişlərinə malik olsalar da, təsərrüfatlarının inkişafını daha çox ilahi qüvvələrin «mərhəməti» ilə əlaqələndirirdilər. Belə hesab edilirdi ki, qədim insanlar bir növ mal-qaranın kiçik bir hissəsini ilahi qüvvəyə «pay» kimi qurban verməklə qalan hissəsini də qoruyub saxlamış olurlar. Həmçinin verilmiş bu qurban mal-qaranın artımı üçün onun ruhuna da yardım edir [19, 89].

Lakin qurbanvermə adətinin meydana gəlməsi digər düşüncə tərzindən də qaynaqlana bilər. Məsələn, Qurani-Kərimin əl-Bəqərə surəsinin 70-73-cü ayələrində Allah tərəfindən inəyin qurban kəsilməsinin tövsiyyə olunması haqda məlumata da rast gəlirik. Burada maraqlı məqamlardan biri də odur ki, kəsilmiş inəyin bir parçası qatili bilinməyən cəsədlərə vurmaqla onları dirildirlər [4, 7]. Buradan belə nəticə çıxır ki, bir canlını qurban verməklə digər bir canlını həyata qaytarmaq mümkündür. Bu da qurbanvermənin əsas qayələrindən birini nümayiş etdirir.

İngilis tədqiqatçısı E.Teylor özünün «İbtidai mədəniyyət» əsərində qurbanvermə adətinin əsasən üç növ düşüncə tərzindən qaynaqlandığını hesab etmişdir: bəxşiş, sovqat amili; alqışlama amili; məhrum etmə və ya döndərmə amili [16, 480]. Birinci növə əsasən adətən qurban kəsilərkən ilahi qüvvəyə sanki qurban pay, bəxşiş kimi verilir. İkinci halda isə ilahi qüvvənin şərəfinə qurban kəsilməklə sanki o alqışlanır. Üçüncüyə gəldikdə isə burada qurbanvermə fərdin ilahi qüvvəyə görə öz malından (hətta canından) məhrum olmağa hazır olduğunu nümayiş etdirir.

Ümumiyyətlə, qurbanvermə adəti ilə bağlı elmi ədəbiyyatlarda müxtəlif fikirlər mövcuddur. Belə fikirlərdən biri budur ki, kəsilən qurban insanın ilahi qüvvə qarşısında səcdə etməsinin əlaməti olaraq ona öz minnətdarlığını və itaətini bildirir. Bundan başqa bu adətin meydana gəlməsi insanların ruhları, xüsusilə də dəfn olunmuş insan ruhunu «qidalandırmaq» istəyi ilə də əlaqələndirilmişdir. «Qidalandırmaq» nəzəriyyəsinin tərəfdarları qədim dövrlərdə dəfn zamanı müxtəlif əşyalarla yanaşı kəsilən qurbanların da basdırılmasını məhz həmin təfəkkürdən irəli gəldiyini söyləmişlər [17, 589].

Qurbanvermə həm də qədim insanla tanrı arasında təmas forması kimi də izah edilir. «Təmas» nəzəriyyəsinin tərəfdarları qurbanlıq ətin yeyilməsini sanki «ilahinin yeyilməsi» kimi də əlaqələndirmişlər. Mahiyyət etibarilə analoji hala müasir dünyəvi dinlərdən olan xristianlıq dinində də rast gəlirik. Həmin dində geniş yayılmış təsəvvürlərə görə yeyilən çörək İsa peyğəmbərin «vücudu»nu, şərab isə onun «qanı»nı rəmziləşdirir [17, 590].

Məlum olduğu kimi qədim cəmiyyətlərin dini mərasimlərində və eləcə də öz inkişaf səviyyəsinə görə geridə qalmış bir sıra xalqların dini ayinlərində bəzi heyvanlarla yanaşı, o cümlədən insanlar da qurban verilmişdir. Əlbəttə, tədricən bəzi cəmiyyətlərdə baş verən mütərəqqi ruhlu inkişaf bu cür halların aradan qalxmasına şərait yaratdı. Belə ki, qurbanvermə ayinləri zamanı hər hansı bir heyvanın yerinə onu simvolizə edən fiqurlar istifadə olunmağa başladı. Bu hər hansı bir heyvana qənaət etmək niyyətindən deyil, sadəcə lüzumsuz yerə canlının həyatına son qoymaq məqsədindən qaçmağa xidmət edirdi.

Bu baxımdan, son zamanlar arxeoloji ədəbiyyatlarda aşkar olunmuş zoomorf fiqurların dini məzmuna malik olması, əsasən sitayiş obyekti və ya fövqəl-təbii qüvvəni özündə ehtiva edən simvolik bir vasitə rolunu oynaması kimi fikirlər geniş yayılmışdır [8, 232]. Məsələn, Baba-Dərviş abidəsində bir maraqlı ocaq quyusu aşkar olunmuşdur. Quyu iribuynuzlu heyvanların yanmış sümükləri ilə dolu idi. Maraqlı cəhət ondan ibarətdir ki, quyudan həmçinin gildən hazırlanmış kiçik bir öküz fiquru da aşkar olunmuşdur. Çox güman ki, bu ocaq quyusu öküz ayini ilə əlaqədar dini mərasim zamanı istifadə edilmişdir [11, 90-91]. Maraqlıdır ki, bu cür qədim adətin izlərinə Gürcüstandakı Amiranis-Qora abidəsində də rast gəlmək mümkündür. Bu abidənin ocaq quyularının birindən müqəddəs öküzü təcəssüm etdirən çox da böyük olmayan fiqur tapılmışdır [9, 215]. Türkmənistanın Altıntəpə ibadətgahından əldə olunmuş zoomorf fiqurlar da qədim sakinlərin təsəvvürlərində allah-büt (səcdəgah) kimi mövcud olmuş və onlara müqəddəs əşya kimi səcdə etmişlər [12, 144]. Təsadüfi deyil ki, brahmanistlər canlı qurban əvəzinə yağdan və undan hazırlanmış qurbanlıq heyvan modellərinə üstünlük ve-

rirlər [16, 497]. Çox güman ki, dini rəvayətdə deyildiyi kimi İbrahim peyğəmbərin oğlu İsmayılı qurban kəsməyə hazırlaşarkən onun əvəzinə Allahın qoyunu qurbanlıq kimi göndərməsi də lüzumsuz yerə insanın, canlının həyatına son qoymaq məqsədindən qaçmağa xidmət etdiyini göstərir. Biz belə hesab edirik ki, bütün bunlar qurbanvermənin digər – əvəzetmə və ya əvəzlənmə məzmunu daşıdığını da göstərir.

Yekun olaraq onu qeyd etmək istəyirik ki, bu adətin motiv və forma baxımından rəngarəngliyi əsasən insanların təsərrüfatları və ictimai-sosial mühitləri ilə əlaqədar olmuşdur. Xüsusilə vurğulamaq lazımdır ki, bu adətin inkişafına, yeni məzmun və forma almasına qədim dövrlərdə maldarlıq təsərrüfatı öz mütərəqqi təsirini göstrmişdir. Təsadüfi deyil ki, müasir dövrümüzdə də dini mərasimlər zamanı kəsilən qurbanlıq heyvan maldarlıq təsərrüfatının əsasını təşkil edən iri və xırdabuynuzlu heyvanlardan ibarət olur.

## *ƏDƏBİYYAT*

1.Əliyev R.M. Azərbaycan nağıllarında mifik görüşlər. Bakı: Elm, 1992, 120 s.
2.İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 65 s.
3.Kalankatuklu Moisey. Albaniya tarixi. Bakı: Elm, 1993, 272 s.
4.Qurani-Kərim məali. Bakı: Qismət, 2006, 592 s.
5.Rzayev N. Qayalar danışır. Bakı: Elm, 1985, 94 s.
6.Şahbazov T.S. Azərbaycanda heyvan kultunun bəzi xüsusiyyətlərinə dair // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2004, № 2, s. 236-242
7.Алексеев Н.А. Ранние формы религии тюркоязычных народов Сибири. Новосибирск: Наука, 1980, 358 с.
8.Брей У., Трамп Д. Археологический словарь. М.: Прогрес, 1990, 368 с.
9.Дадашев А.Н. Земледельческо-скотоводческая экономика обществ эпохи палеометалла на территории Азербайджана. Баку: Издательство Бакинского Университета, 2000, 396 с.
10.Джафарзаде И.М. Гобустан. Баку: Элм, 1973, 348 с.
11.Исмаилов Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш (III тысячелетие до н.э.). Баку: Элм, 1978, 104 с.
12.Масимов И.С. Раскопки святилища эпохи бронзы на Алтын-депе // Советская археология, №2, 1973, с. 139-145
13.Нариманов И.Г. К истории древнейшего скотоводства Закавказья // Доклады АН Аз ССР, № 10, 1977, с. 56-59
14.Нариманов И.Г. Краткие итоги исследования на холме Чалагантепе / Археологические и Этнографические изыскания в Азербайджане (1982), Баку: Элм, 1990, с. 14-16.
15.Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
16.Тейлор Э. Первобытная культура. М.: Государственное социально-экономическое издательство, 1939, 568 с.
17.Токарев С.А. Ранние формы религии. М.: Издательство политической литературы, 1990, 622 с.
18.Фрезер Дж. Золотая ветвь. М.: Издательство политической литературы, 1980, 832 с.
19.Шарль Эншлен. Происхождение религии. М.: Издательство иностранной литературы, 1954, 294 с.
20.Развитие ранних религиозных верований (глава III) //
www.i-u.ru/biblio/archive/kapustin_osobennosti/02.aspx

Tarix və onun problemləri, №1-2 2009

НАСИР ГУЛУЗАДЕ
*Аспирант Бакинского Государственного Университета*

**ПРО ГЕНЕЗИС РЕЛИГИОЗНОГО ОБРЯДА ЖЕРТВОПРИНОШЕНИЯ**

В данной статье рассматриваются вопросы генезиса обряда жертвоприношения, который возник в древнейшие времена и сохранился вплоть до современности. Используя в основном археологические и этнографические материалы автор в статье показал причины которые позитивно оказали влияние на возникновение обряда жертвоприношения. Кроме того здесь перечислины возможные образы мышления и мировоззрения играющие роль источника для жертвоприношения.

**NASIR GULUZADE**
***Baku State University***

**THE ABOUT OF GENESIS OF RELIGIOUS PRACTICE OF SACRIFICE**

In the given article were considered the questions of genesis of an ancient sacrifice ceremony which has remained up to the nowadays. The author using archaeological and ethnographic materials has shown the reasons which have positively influenced occurrence of the sacrifice ceremony. Moreover, here were listed possible mentalities and outlooks, performing as a source for sacrifice.

***Rəyçilər: t.e.n.H.R.Mahmudova, t.e.d.Q.S.İsmayılzadə.***
***BDU-nun Tarix fakültəsi Arxeologiya və Etnoqrafiya kafedrasının 09 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***